# Müzəffər Ordumuz:

## Vətənə sevginin, dövlətçiliyə sədaqətin yenilməz vəhdəti



**Vətən müharibəsində dövlətimizin ərazi bütövlüyünü təmin edən, işğal altındakı torpaqların azadlığına nail olan Müzəffər Ali Baş Komandan İlham Əliyev həm iqtisadi, həm siyasi, həm də hərbi sahədə böyük uğurlara imza atıb, Azərbaycanı qalib ölkəyə, regionun qüdrətli dövlətinə çevirməyə nail olub. Bu baxımdan dövlətimizin başçısı İlham Əliyevin ordu quruculuğu siyasəti hərb tariximiz baxımından müstəsna əhəmiyyətə malikdir. Qurucusu ümummilli liderimiz Heydər Əliyev olan ordunun maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi bu sahədə İlham Əliyev mərhələsinin uğurlarının başlanğıcı olaraq dəyərləndirilir.**

Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Beynəlxalq aləmə ədalətin, haqqın öz gücü hesabına bərpa olunmasının mümkünlüyünü nümayiş etdirən xalqımız ölkə başçısının illərlə yürütdüyü müdrik siyasətin məntiqi nəticəsini gördü. Azərbaycan xalqı liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Cənab Prezidentin də dediyi kimi, dörd amil bizim qələbəmizi şərtləndirdi. Birincisi, xalq-iqtidar birliyi idi. İkinci şərt, məsələnin tarixi və hüquqi tərəfini dünyaya çatdırmaq idi. Üçüncüsü, güclü iqtisadiyyat qura bilməyimizdir. Nəhayət, dördüncü şərt ordu quruculuğudur. Prezident İlham Əliyev "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" inamı ilə ordu quruculuğunun bütün parametrlərinin genişləndirilməsini, bu parametrlərin vəhdətini təmin etdi. Ordumuz qısa müddətdə nizami ordu kimi formalaşdı. Ordunun gücü, döyüş qabiliyyəti həm də döyüş texnikaları ilə, silah-sursatla bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin edən tarixi sənəd idi. Qısa müddətdə silah, hərbi sursat istehsalına başlanıldı. Nazirliyin müəssisələrinin istehsal etdiyi məhsulların 80 faizdən çoxu müdafiə təyinatlıdır. Silahlı Qüvvələrin balansında olan zavodlarda təmir, yenidənqurma işləri aparıldı, bu müəssisələr indi ordumuzun inventarında olan hərbi texnikaların təmirini, ən müasir şəkildə modernləşdirilməsini həyata keçirməkdədir.

Ulu öndərin azərbaycançılıq məfkurəsi əsasında böyük ideyalarını dövlətçiliyin başlıca qayəsi kimi davam etdirən, ordu quruculuğunu prioritet elan edən Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Silahlı Qüvvələrimizdə irimiqyaslı islahatlar aparılmağa başlandı. Müxtəlif təyinatlı taktiki təlimlər ordunun döyüş qabiliyyətinin artırılmasını təmin etdi. İndi Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Dövlət başçısının ordu quruculuğu siyasətində diqqətçəkən mühüm məqamlardan biri də Azərbaycan Ordusunun dünya hərb sənayesinin ən son nailiyyətləri ilə təchiz olunmasına, müasir hərbi texnikanın idxalına xüsusi diqqət yetirməsi ilə bağlıdır. Azərbaycanın iqtisadi gücündən maksimum faydalanaraq ordumuzu Türkiyə, İsrail, Rusiya, Belarus və digər dövlətlərin müasir hərbi texnikaları ilə təchiz edən, onun davamlı modernləşdirilməsi prosesini həyata keçirən dövlətimizin başçısı bununla Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusu qarşısındakı üstünlüyünü daha da artırdı və peşəkar, ən müasir tələblərə cavab verən orduya çevirdi. Təkcə bir faktı qeyd etmək kifayət edər ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Türkiyə və İsraildən aldığı kəşfiyyat və zərbə dronları düşmən hədəflərinin müəyyənləşdirilməsində və məhv edilməsində mühüm rol oynadı. Nəticədə, işğalçı orduya məxsus milyonlarla dollar dəyərində hərbi texnika, hava hücumundan müdafiə sistemləri, artilleriya qurğuları məhv edildi.

"Biz çox xoşbəxt ölkəyik ki, Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah, bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir". Müzəffər sərkərdə, Prezident İlham Əliyev bu fikirləri "TRT Haber" telekanalına müsahibəsində deyib. Müstəqilliyimizin bərpasının ilk günlərindən bizə ən böyük mənəvi dəstək göstərən Türkiyənin müasir ordu modelinin Azərbaycanda tətbiqi barədə ölkə başçısının bəyanatı xalqımız tərəfindən rəğbətlə qarşılandı. Dövlət başçısının sözlərinə görə, Azərbaycan müharibə dövründə yeni təcrübə topladı. Azərbaycan ordusunun dağ komandolarından ibarət yeni hərbi hissənin yaradılması Türk Ordusu modelinə uyğun yeni ordu quruculuğuna dair Ali Baş Komandan, Prezident İlham Əliyevin hərbi rəhbərliyin qarşısında qoyduğu vəzifəyə əsasən həyata keçirilir. Azərbaycan ordusunun şanlı qələbəsi, düşmənin darmadağın edilməsi ilə nəticələnən müharibə şübhəsiz ki, vacib taktiki cəhətləri də üzə çıxarmışdı. Məhz müharibədə qazanılan təcrübəni nəzərə alaraq Azərbaycan ordusunu Türkiyə ordusunun modelinə uyğun yenidən qurmaq vəzifəsi qarşıya qoyulmuşdu. Həyata keçirilən yeniliklərdən danışarkən qeyd etmək lazımdır ki, Azərbaycan Ordusunda bir neçə yeni struktur - briqadalar, əməliyyat strukturları (komandolar) yaradılıb. Bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, böyük iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, ordumuzun gücünü daha da artıracaq. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır.

**_Gücünü əzmlə nümayiş etdirən Silahlı Qüvvələrimiz istənilən hərbi vəzifəni icra etməyə qadirdir_**

Azərbaycan Prezidenti İlham Əliyevin ordu quruculuğu siyasətində mühüm yer tutan məsələlərdən biri də yüksək peşəkarlığa malik hərbi kadrların hazırlanması ilə bağlıdır. Azərbaycan Ordusu öz peşəkarlığını ilbəil artırır. Vətən müharibəsi də bir daha sübut etdi ki, Azərbaycan Ordusunun çox böyük təcrübəsi var. Bu təcrübənin əldə edilməsində qardaş Türkiyə ilə birgə keçirilən təlimlər müstəsna əhəmiyyətə malikdir. Eyni zamanda, Azərbaycan hərbçilərinin Türkiyədə aldığı hərbi təhsil, keçdiyi kursun da əhəmiyyəti böyükdür. Azərbaycan Ordusunun bu cür birgə təlimlərdə iştirakı ordumuzun inkişafı üçün önəmlidir. Hərbi ekspertlər birmənalı olaraq qeyd edirlər ki, Azərbaycanla Türkiyənin birgə təlimləri, ilk növbədə, Azərbaycan ordusunun peşəkar hərbçilərinin hərbi hazırlıq potensialını göstərir. Türkiyə ordusunun imkanları daha genişdir və unutmaq olmaz ki, Türkiyə NATO-nun ən güclü ordularından biridir. Azərbaycanın nəyə qadir olduğunu 44 günlük müharibədə bütün dünya gördü. Azərbaycan-Türkiyə bölmələrinin birgə təlim keçirməsi hərbi əməkdaşlıqda mühüm rol oynayır. İki dövlətin birgə fəaliyyəti qardaşlığımızı, dostluğumuzu daha da möhkəmləndirəcək. Digər tərəfdən təlimlərin keçirilməsi onu göstərir ki, dostlar buna sevinir. Təlim düşmənlərə də bir ismarıcdır ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşıq və Şuşa Bəyannaməsindən sonra da biz sırf praktiki şəkildə bu təlimləri keçiririk. Azərbaycanla Türkiyənin hərbi təlimləri və əməkdaşlığı birinci növbədə iki dövlətin maraqlarına xidmət edir. Digər göstərici də odur ki, Azərbaycanla Türkiyənin iş birliyi regionda stabilliyi qorumaq və hər hansı xarici müdaxiləyə qarşı durmağa qadir olacaqdır. Peşəkar ordu əsasən yüksək texnologiyalı ordu olmalıdır. Ordunun döyüş qabiliyyəti heç də iştirak edənlərin sayından asılı deyil. Qeyd etmək lazımdır ki, Azərbaycan Ordusu dünyadakı sıralamada ilk "50-lik"də yer alır.

Ordu quruculuğu istiqamətində aparılan işlər arasında hərbi hissələrin yaradılması xüsusi yer tutur. Hazırda Azərbaycanın bütün bölgələrində, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə müxtəlif təyinatlı hərbi hissələr və obyektlər istifadəyə verilir. Onların hamısı müasir standartlara cavab verir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərbi hissələrdə inşaat və təmir-bərpa işləri intensiv şəkildə davam etdirilir.

Dövlət başçısı qətiyyətlə bildirir ki, hərbi potensialın gücləndirilməsi, ordu quruculuğu üçün nə lazımdırsa, o da ediləcək. Bunun üçün ölkənin güclü iqtisadi imkanları var. Gündən-günə artan maliyyə resursları, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu burada, bu məsələdə prioritetdir. Qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, Silahlı Qüvvələrdə mənəvi əhvali-ruhiyyənin sağlamlaşdırılması, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, struktur islahatlarının onun qarşısında dayanan vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaradıb. Bütün bunların nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrilib.

**Mustafa KAMAL,**
**"Respublika".**